13 noyabr / 2021

# Səyyad Aranın İranda kitabı nəşr edilib



Azərbaycanın tanınmış yazıçısı Səyyad Aranın İranda kitabı çap edilib. Yazıçının hekayələrindən ibarət "Oyanma" adlı kitabın tərcüməçisi və redaktoru Çağla Nurvəşdir. Nəşrə hekayələrin fars dilinə tərcüməsi ilə yanaşı, Azərbaycan dilindəki versiyası da daxil edilib. Müəllif müxtəlif illərdə yazdığı bu hekayələrdə həm fərqli dövrlərin spesifik xüsusiyyətlərini, ictimai-siyasi aurasını, cəmiyyətin yaşam tərzini ustalıqla təsvir edib, həm də insan və mənəviyyat məsələsinin zaman və məkan məfhumlarının fövqündə durduğunu, hər zaman ön planda tutulmalı olduğunu çatdıraraq özünəməxsus üslubuna sadiq qalıb.

Kitaba yazıçının 13 hekayəsi daxil edilib.

"Nəbati və Azərturan" nəşriyyatında çap olunan kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

***Saleh Arslan***